Allah qulun hansı bir yerdə ölməsini istərsə, onun ora getməsinə səbəb olacaq bir ehtiyac yaradar

Matar bin Ukamisdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Allah qulun hansı bir yerdə ölməsini istərsə, onun ora getməsinə səbəb olacaq bir ehtiyac yaradar."

[Səhih] [Ət-Tirmizi rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah qulun olmadığı müəyyən bir yerdə ölməsini təqdir etdikdə, onun ora getməsinə səbəb olacaq bir ehtiyac yaradar və orada ruhunu alar.

http://www.sunnah.global/hadeeth/az/show/65040